**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAF RESURSLARI VƏ ONLARDAN SƏMƏRƏLİ İSTİFADƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ PROBLEMLƏRİ (İNSAN, YANACAQ-ENERJİ VƏ MALİYYƏ)

İxtisas: 5308.01 – "Ümumi iqtisadiyyat"

Elm sahəsi: 53 – İqtisad elmləri

İddiaçı: **Natəvan Veysəl qızı Namazova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2021**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "Ticarət və gömrük işinin təşkili" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad üzrə elmlər doktoru, professor
**Arif Şəkərəli oğlu Şəkərəliyev**

Rəsmi opponentlər: iqtisad üzrə elmlər doktoru, professor
**Şəfa Tofiq qızı Quliyeva**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Rəsmiyyə Sabir qızı Abdullayeva**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Əzim Buxsay oğlu Əbdüləzimov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: iqtisad üzrə elmlər doktoru, professor
_______________ **Ədalət Cəlal oğlu Muradov**
imza

Dissertasiya şurasının elmi katibi: iqtisad üzrə fəlsəfə doktoru, dosent
_______________ **Zöhrab Həsən oğlu İbrahimov**
imza

Elmi seminarın sədri: iqtisad üzrə elmlər doktoru, professor
_______________ **Rəsul Ənvər oğlu Balayev**
imza

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Təbii sərvətlərdən və milli iqtisadi resurslardan səmərəli istifadə edilməsi problemləri daim dünya ölkələrinin diqqət mərkəzində olmuşdur. Resurs potensialı milli iqtisadiyyatın strukturunun şaxələndirilməsinə, onun istehsal sahələrinin genişləndirilməsinə, rəqabətqabiliyyətli və ixractəyinatlı məhsulların çeşidinin artırılması hesabına dünya iqtisadi proseslərinə inteqrasiyasının sürətləndirilməsinə, milli iqtisadiyyatın imicinin yüksəldilməsinə, ölkənin maliyyə resurslarının və valyuta ehtiyatlarının artmasına, dünya ölkələri içərisində layiqli yer tutmasına əlavə imkanlar yaradır. Bu baxımdan, ölkəmizin zəngin iqtisadi resurslarından səmərəli istifadəni təmin etməklə, iqtisadi inkişaf proseslərinin intensivləşdirilməsi potensialına malik olması xüsusi əhəmiyyət kəsb edir.

Öz müstəqilliyini bərpa etdikdən sonra 1990-cı illərin əvvəllərindən başlayaraq, neft strategiyasının reallaşdırılması milli iqtisadiyyatın inkişafının yeni potensialını formalaşdırmağa imkan vermişdir. Neft və qaz ehtiyatlarının işlənməsi və hasilatının genişləndirilməsi ölkəmizin bu sahədəki resurslarının dünya bazarlarına çıxarılmasına şərait yaratmış, regional və beynəlxalq səviyyədə iri layihələrinin reallaşdırılması mümkün olmuş, ölkədə infrastrukturun yenilənməsi təmin edilmiş və modern, yüksək texnologiyalar hesabına istehsal şəbəkəsi formalaşdırılmış, milli iqtisadiyyatın diversifikasiyalaşdırılması perspektivləri artmış, mühüm iqtisadi resurs olan – insan resurslarından daha səmərəli istifadəyə əlavə stimullar yaranmış, ölkənin maliyyə resurslarının etibarlı və məhsuldar mənbəyi formalaşmışdır. Bunlarla bərabər, hər bir ölkənin milli resursları və ehtiyatları müəyyən milli maraqların qorunmasını, onun iqtisadi təhlükəsizliyinin təmin edilməsini, resurslardan maksimum səmərəli istifadənin təşkil olunmasını, bunlarla bağlı qənaət rejiminin reallaşdırılmasını, resurslardan effektivli istifadənin müxtəlif modellərinin və mexanizmlərinin işlənib hazırlanmasını və həyata keçirilməsini şərtləndirir. Eyni zamanda, iqtisadi resurslar tükənmə xüsusiyyətlərinə malik olduğundan, bu resurslardan istifadənin uzunmüddətli bir dövrdə davamlı və səmərəli istifadə edilməsi problemlərini həll etmək lazım gəlir. Ölkəmizdə bu baxımdan mövcud problemlər vardır və neftin hasilatının

intensivləşməsi ilə əlaqədar olaraq, resurs potensialından maksimum istifadənin təmin edilməsi zərurəti yaranmışdır. Bununla bərabər, dünya bazarlarında neftin qiymətindəki qeyri-sabitlik ölkəyə daxil olan valyuta vəsaitlərinin mənbələrinin digər iqtisadiyyat sahələrinin inkişafı hesabına formalaşdırılmasını vacib edir. Ölkədə işsizliyin səviyyəsinin aşağı olmasına baxmayaraq, insan resurslarından onların bacarıq və fərdi keyfiyyətlərinə, intellektual səviyyəsinə görə istifadə edilməsi problemləri qalmaqdadır. İnsan resurslarından müasir dövrün tələblərinə adekvat istifadə mexanizmlərinin və bununla bağlı qanunvericilik bazasının təkmilləşdirilməsi tədbirləri görülməlidir və s. Bütün bunlar nəzərə alınmaqla, göstərilən amillər "Azərbaycanın iqtisadi inkişaf resursları və onlardan səmərəli istifadənin təkmilləşdirilməsi problemləri (insan, yanacaq-enerji və maliyyə)" mövzusunda dissertasiya işinin fundamental araşdırmaya ehtiyacı olan tədqiqat işi kimi xarakterizə edir və bunlar ümumilikdə dissertasiya işinin mövzusunun aktuallığını göstərir.

**Problemin işlənmə dərəcəsi.** Azərbaycanın iqtisadi inkişaf resursları və onlardan səmərəli istifadənin təkmilləşdirilməsi ilə bağlı problemlər, eyni zamanda, dünya üzrə analoji problemlərlə bağlı ölkəmizin iqtisad elmində və dünya iqtisad elmində daimi olaraq araşdırmalar aparılmış, nəzəriyyələr irəli sürülmüş və elmi əsərlər ərsəyə gətirilmişdir. Milli sərvətlərdən və təbii resurslardan, ümumilikdə, iqtisadi resurslardan maksimum səmərəli istifadə olunması problemləri klassik iqtisad elminin inkişafının ilk dövrlərindən iqtisadçı-alimlərin diqqət mərkəzində olmuşdur. Ölkəmizdə də bu problemlər üzrə tədqiqat işləri aparılmış, monoqrafiyalar yazılmış və s. elmi əsərlər işıq üzü görmüşdür. Bir qrup ölkə alimlərinin və tədqiqatçılarının – A.Nadirov, Z.Səmədzadə, Ə.Nuriyev, Ş.Muradov, Ə.Muradov, İ.Alıyev, T.Hüseynov, A.Şəkərəliyev, T.Quliyev, H.Rüstəmbəyov, H.Allahverdiyev, K.Qafarov, N.Əliyev, E.Hacızadə, Ü.Əliyev, Z.Nəcəfov, Ç.Abbasov, L.Muhsinova, B.Əhmədov, Ş.Əliyev, E.Əhmədova, N.Adilova, A.Mustafayev, K.Dadaşov, K.Ağayev, P.Rüstəmov, G.Məmmədova, Y.Bayramzadə, İ.Mikayılov, A.Əmiraslanov və digərlərinin elmi əsərlərini, ölkəmizin iqtisadi inkişaf resurslarından, o cümlədən, milli sərvətlərdən, karbohidrogen ehtiyatlarından, xüsusilə, neft və qaz resurslarından səmərəli istifadənin təşkili ilə bağlı

tədqiqatlarını, elmi baxışlarını qeyd etmək olar. Bir sıra klassik və müasir iqtisadçı dünya alimləri tərəfindən milli sərvətlərdən daha səmərəli istifadənin vacibliyi, milli iqtisadi inkişaf proseslərinin intensivləşdirilməsində, milli ehtiyatlardan və bütövlükdə, iqtisadi resurslardan daha səmərəli istifadə edilməsi problemləri tədqiq olunmuşdur. Bunların sırasında A.Smit, A.Marşall, M.Blauk, A.Toffler, J.Sey, R.Solou, A.Veber, P.Samuelson, V.Nordhaus, R.Merton, Y.Domar, Q.Bekker, L.Torou və başqalarının elmi əsərləri, tədqiqat işləri daha çox əhəmiyyət kəsb edirlər. Bir qrup tədqiqatçı-alimlər isə iqtisadi inkişaf resurslarının nəzəri-konseptual əsasları, onların mahiyyəti, resurslardan istifadənin xüsusiyyətləri və digər problemlər üzrə tədqiqatlar aparmışlar. Bunlardan D.Vanin, Y.Yeroxina, D.Bıçkov, D.Desyatko, K.Baxmurov, X.Pulodova, A.Vasilyeva, A.Varaksa, S.Şapiro, A.Levin, A.Qavrilin, N.Petrunin, E.Sobolev, A.Sereda, M.Kulaqina və başqalarının əməyini qeyd etmək olar.

Bütün bunlara baxmayaraq, qeyd etmək lazımdır ki, ölkəmizdə iqtisadi inkişaf resurslarından səmərəli istifadənin təkmilləşdirilməsi problemlərinin, xüsusilə, insan, yanacaq-enerji və maliyyə kimi spesifik iqtisadi resurslardan maksimum effektivli istifadənin həlli yollarının müəyyənləşdirilməsi istiqamətlərində fundamental elmi-tədqiqat işlərinin aparılmasına, bu sahədəki problemlərin müasir dövrün tələbləri baxımından araşdırılmasına ciddi ehtiyac qalmaqdadır. Qeyd olunan amillər nəzərə alınmaqla, Azərbaycanın iqtisadi inkişaf resursları və onlardan səmərəli istifadənin təkmilləşdirilməsi problemlərinin daha dərindən və fundamental elmi yanaşma baxımından araşdırılması aktuallığı xüsusilə fərqlənir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi – hazırkı dövrdə ölkəmizdə iqtisadi inkişaf resursları və onlardan səmərəli istifadənin təkmilləşdirilməsi problemlərinin və bu resurslardan istifadənin səmərəliliyinin yüksəldilməsi yollarının müəyyənləşdirilməsidir. Azərbaycanda iqtisadi inkişaf resursları və onlardan səmərəli istifadənin təkmilləşdirilməsi problemlərinin öyrənilməsi, üzə çıxarılması və bu resurslardan istifadənin səmərəliliyinin yüksəldilməsi yollarının müəyyənləşdirilməsi üçün dissertasiya işində aşağıdakı məqsəd və vəzifələr qarşıya qoyulmuşdur:

–"resurs" və "resurs potensialı" anlayışlarının nəzəri-metodoloji

əsaslarının öyrənilməsi və onların mahiyyətinin açıqlanması;

–iqtisadi resursların konseptual aspektlərinin öyrənilməsi;

–resurslardan istifadənin tənzimlənməsi ilə bağlı hüquqi əsasların mənimsənilməsi;

–iqtisadi resurslardan istifadənin mövcud vəziyyətinin təhlil edilməsi və resurs potensialının qiymətləndirilməsi;

–iqtisadi resurslardan istifadənin tənzimlənməsi xüsusiyyətlərinin araşdırılması;

–iqtisadi resurslardan milli iqtisadiyyatın inkişafına təsiri amillərinin baxılması və bununla bağlı tənzimləmə mexanizmlərinin inkişaf prioritetlərinin əsaslandırılması;

–iqtisadi resurslardan istifadənin effektivliyini şərtləndirən vəzifələrin və bunların daha məhsuldar həlli istiqamətlərinin işlənib hazırlanması və s.

**Tədqiqatın metodları.** Dissertasiya işində əsasən elmi dərketmənin ümumi metodlarından olan empirik tədqiqat metodları (müşahidə, müqayisə) və nəzəri səviyyəsində (təhlil və sintez, induksiya və deduksiya) istifadə edilən metodları ilə tədqiqat aparılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat işində aşağıdakı fikirlər əsas müddəalar olaraq müdafiəyə çıxarılır:

– Azərbaycanda əqli əməyin təkmilləşdirilməsi üçün işçilərin ölkədə və ya xaricdə təkmilləşdirmə kurslarına göndərilməsi;

– Azərbaycan universitetlərində tələbələrin keçdiyi təcrübələrin hər bir peşənin mənimsəyəcək müddətə uyğun və ödənişli əsaslarla reallaşdırması;

– xaricdə yaşayan azərbaycanlıları öz vətənlərində əmək fəaliyyətinə cəlb etmək üçün mərkəzin yaradılması və bu resurslara uyğun online iş rejiminin qurulması;

– ölkədə hasilat və emal prosesində baş verən itkilərin qəzaların azaldılması üçün müasir texnologiyalardan planlı şəkildə istifadə olunması;

– ölkədə elektrik və istilik enerjisində qənaəti təmin etmək üçün alternativ – günəş və külək enerjisindən istifadənin genişləndirilməsi;

–bərpa olunan alternativ enerjidən istifadəni genişləndirmək üçün əqli əməyin formalaşması və istehsal avadanlıqlarının hazırlanması;

– ölkədə yanacaq və enerji resurslarından səmərəli istifadəni

təmin etmək üçün maarifləndirmənin gücləndirilməsi (məcburi reklamların yayınlanması, video çarxların hazırlanması, məlumatlandırıcı mesajların göndərilməsi);

−Azərbaycanda şəffaf və legal maliyyə bölgüsünə nail olmaq və optimal nəzarəti təmin etmək üçün nağdsız ödənişlərin əhatə dairəsinin genişləndirilməsi;

−Azərbaycanda iqtisadiyyatın zəif inkişaf etmiş sektorlarına investisiya cəlb etmək üçün bu sahələrdə investorlar üçün perspektivləri işıqlandırmaq;

− ölkədən kapital axının qarşısını almaq və s. məsələlər.

**Tədqiqatın nəzəri və metodoloji əsasını** dünya iqtisadi proseslərində milli iqtisadiyyatın inkişafı kontekstində resurslardan istifadənin səmərəliliyinin yüksəldilməsinin rolu və əhəmiyyəti, bununla bağlı ölkəmizdə davamlı iqtisadi inkişafın təmin edilməsində milli iqtisadi resursların təsir imkanları, onların xüsusiyyətləri, baxılan problemlərlə bağlı nəşrlər, elmi əsərlər, statistik məlumatlar, qanunvericilik aktları və s. təşkil edirlər.

**Tədqiqatın predmeti** müasir dövrdə Azərbaycanda iqtisadi inkişaf resursları və onlardan səmərəli istifadənin təkmilləşdirilməsi problemləridir.

**Tədqiqatın obyekti** kimi milli iqtisadiyyatın inkişafında resurslardan istifadənin rolu, onların tənzimlənməsinin hüquqi əsasları, iqtisadi resurslardan istifadə mexanizmləri, modelləri və inkişaf prioritetləri, ölkəmizin iqtisadi resurs potensialı, bu resurslardan istifadənin səmərəliliyinin yüksəldilməsi yollarının müəyyənləşdirilməsi problemləri çıxış edirlər.

**Tədqiqatın elmi yeniliyi** ölkəmizdə iqtisadi inkişaf resursları və onlardan səmərəli istifadənin təkmilləşdirilməsi problemlərinə, bunlarla bağlı konseptual aspektlərə və tənzimləmə mexanizmlərinə müasir dövrün tələblərinə adekvat elmi baxışın formalaşdırılmasıdır. Digər mühüm elmi yeniliklərə isə aşağıdakıları aid etmək olar:

−Azərbaycanda milli iqtisadiyyatın inkişafında resurslardan istifadənin rolu və bununla bağlı proseslər araşdırılmış, onların spesifik xüsusiyyətləri, mühüm amillər və problemlər sistemləşdirilmişdir;

−ölkədə resurslardan istifadənin tənzimlənməsinin iqtisadi-maliyyə mexanizmlərinin, hüquqi-normativ aktlarının təkmilləşdirilməsi

və yenilənməsi zərurəti əsaslandırılmışdır;

– insan, yanacaq-enerji və maliyyə resurslarından istifadənin müasir durumu müqayisəli formada araşdırılmış, bu sahələrdə iqtisadi resurs potensialı obyektiv olaraq müəyyənləşdirmişdir;

– müasir reallıqlar nəzərə alınmaqla, iqtisadi resurslardan optimal istifadə problemləri tədqiq edilmiş, ayrı-ayrı iqtisadi resurslardan səmərəli istifadənin meyarları ümumiləşdirilmişdir;

– iqtisadi resurslardan istifadənin daha effektivli təşkili və tənzimlənməsi modellərinin işlənib hazırlanması və reallaşdırılması üzrə praktiki fəaliyyətin strateji məqsədləri və hədəflərinin əsas istiqamətləri verilmişdir;

– ölkəmizin davamlı iqtisadi inkişafı baxımından iqtisadi resurslarından istifadənin məhsuldar, adekvat tədbirlərinin, dövlət proqramlarının, strategiyalarının hazırlanması və həyata keçirilməsi zərurəti əsaslandırılmışdır;

–Azərbaycanda insan, yanacaq-enerji və maliyyə resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsi yolları üzrə bir qrup tövsiyələr hazırlanmış, təkliflər verilmişdir və s.

**Tədqiqatın nəzəri əhəmiyyəti** ölkəmizdə iqtisadi resurslardan istifadənin səmərəliliyinin yüksəldilməsi ilə əlaqədar olaraq, iqtisadi resurslardan səmərəli istifadə edilməsində dövlət siyasətinin formalaşdırılmasında və praktiki mexanizmlərin, hüquqi-normativ bazanın hazırlanmasında və təkmilləşdirilməsində baxılan problemlər, eyni zamanda, müvafiq elmi istiqamətlər üzrə tədris prosesində istifadə edilməsi imkanları ilə izah olunur.

**Tədqiqatın praktiki əhəmiyyəti** işdə yer almış təklif və tövsiyələr, ölkəmizdə iqtisadi resurslardan istifadənin artırılması istiqamətlərinin və yollarının müəyyənləşdirilməsi ilə izah olunur.

**Tədqiqatın nəticələrinin aprobasiyası və tətbiqi.** Tədqiqat işinin başlıca müddəaları və əsas nəticələri Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş Azərbaycan Respublikası Təhsil Nazirliyi, Sumqayıt Dövlət Universiteti və Azərbaycan Dövlət İqtisad Universitetinin 27-28 aprel 2016-cı ildə Sumqayıt Dövlət Universitetində birgə təşkil etdikləri "İqtisadiyyatın davamlı inkişafı: problemlər, perspektivlər" Beynəlxalq elmi konfransda edilmiş "Azərbaycanda iqtisadi resurs-

lardan istifadənin konseptual aspektləri" məruzəsində verilmişdir. Bundan əlavə fəsillərdəki nəticə və təkliflər "İpək yolu", "Audit" jurnallarının sayında və bir neçə yerli və beynəlxalq elmi konfrans materiallarında dərc edilmiş məqalə və tezislərdə əks olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin Ticarət və gömrük işinin təşkili kafedrasında, i.e.d., prof. Arif Şəkərəliyevin elmi rəhbərliyi ilə yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi mündəricat, giriş (13779 işarə), üç fəsildən (I fəsil - 127349 işarə, II fəsil – 65700 işarə, III fəsil – 60373 işarə), nəticə (16514) və istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olmaqla işin ümumi həcmi 166 səhifədən (283658 işarə) ibarətdir. İşdə 22 cədvəl və 7 şəkil verilmişdir. İstifadə edilmiş ədəbiyyat siyahısında 229 mənbə vardır.

## Dissertasiya işinin mündəricatı

**Giriş**

**Fəsil I. Azərbaycanın iqtisadi inkişaf resurslarından istifadənin nəzəri-konseptual əsasları**
1.1. Azərbaycanın iqtisadi inkişaf resurslarından istifadənin nəzəri-konseptual əsasları
1.2. Resurslardan istifadənin konseptual aspektləri
1.3. Resurslardan istifadənin tənzimlənməsinin hüquqi əsasları

**Fəsil II. Azərbaycanın iqtisadi inkişaf resurslarından istifadənin mövcud durumu və müqayisəli təhlili**
2.1. Azərbaycanda iqtisadi resurslardan istifadənin mövcud vəziyyəti və onun qiymətləndirilməsi
2.2. İqtisadi resurslardan istifadənin tənzimlənməsin xüsusiyyətləri və problemləri

**Fəsil III. Azərbaycanın iqtisadi inkişaf resurslarından səmərəli istifadənin təkmilləşdirilməsi istiqamətləri**
3.1. Davamlı iqtisadi inkişaf baxımından Azərbaycanın iqtisadi resurslarından istifadənin tənzimlənməsi sisteminin inkişaf prioritetləri
3.2. Azərbaycanda iqtisadi resurslardan istifadənin səmərəliliyinin yüksəldilməsi yolları

**Nəticə**
**İstifadə edilmiş ədəbiyyat siyahısı**

## İŞİN ƏSAS İDEYALARI VƏ NƏTİCƏLƏRİ

### 1. Azərbaycanın iqtisadi inkişaf resurslarından istifadənin nəzəri-metodoloji aspektləri

Azərbaycanın insan, yanacaq-enerji və maliyyə kimi iqtisadi inkişaf resursları və onlardan səmərəli istifadənin təkmilləşdirilməsi problemlərinin, bu resurslardan istifadənin səmərəliliyinin yüksəldilməsi yollarının müəyyənləşdirilməsi üçün, ilk növbədə ölkəmizin iqtisadi inkişaf resurslarından istifadənin nəzəri əsasları, konseptual yanaşmalar, bunlarla əlaqədar olaraq milli iqtisadiyyatın inkişafında resurslardan istifadənin rolu və formalaşması prosesləri, resurslardan istifadənin xüsusiyyətləri, iqtisadi resurslardan istifadənin tənzimlənməsi mexanizmləri və hüquqi əsasları tədqiq edilmişdir.




**Şəkil 1. İnsan resurslarının konseptual elementlərinin sxemi**

*Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*

Şəkil 1.-in materialları göstərir ki, insan resurslarının konseptual tərkib elementləri kimi əsas etibarı ilə insanların fiziki və əqli əməyi, əmək, yəni işçi resursları, həmçinin insanın fərdi keyfiyyətləri və intellektual xüsusiyyətləri çıxış edirlər.




**Şəkil 2. Yanacaq-enerji resurslarının mənbələri və əsas qruplarının sxemi**
*Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*

Şəkil 2.-də yer almış yanacaq-enerji resurslarının təbii ehtiyat mənbələrinə və geniş çeşiddə yanacaq qruplarına və növlərinə konseptual yanaşmanın təmin edilməsi mürəkkəb bir məsələ olduğu qədər, həm də kifayət qədər investisiya resurslarının cəlb edilməsi və maliyyə vəsaitlərinin istifadəsini şərtləndirir.




**Şəkil 3. Maliyyə resurslarının əsas növləri, mənbələri və istifadəsi istiqamətlərinin sxemi** *Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*

Şəkil 3-də verilən maliyyə resurslarının əsas növləri, başqa sözlə, daxili və xarici maliyyə resursları, maliyyə resurslarının əsas və artırılması mənbələri, həmçinin maliyyə resurslarının əsas xərc istiqamətləri üzrə optimallaşdırılmış idarəetmə mexanizmlərinin formalaşdırılması, dövlətin iqtisadi siyasətinin təkmilləşdirilməsi və milli iqtisadi maraqlar çərçivəsində konseptual yanaşmanın təmin edilməsi bütövlükdə maliyyə resurslarından səmərəli istifadəni təmin etməyə imkan verə bilər.

Milli iqtisadiyyatın inkişafında resurslardan istifadənin nəzəri-metodoloji baxımından aşağıdakıları ümumiləşdirmək olar:

–“Resurs” və “iqtisadi resurs” anlayışları dedikdə ilk növbədə milli sərvətlər, təbii ehtiyatlar, faydalı qazıntılar, yeraltı və yerüstü digər resurs mənbələri, pul vəsaitləri, qiymətlilər, imkanlar, vəsait mənbələri, gəlirlər və s. məcmusu başa düşülməlidir;

–İnsan resursları özündə fiziki və əqli əməyi, əmək yaşında və əmək qabiliyyəti olan əhalini-işçi qüvvəsini, hər bir insanın fərdi və psixoloji keyfiyyətlərini, bacarıq və intellektini birləşdirir;

–Yanacaq-enerji resursları kimi neft, təbii qaz, daş kömür, yanar şistlər və torf, hidroeneji mənbələri, günəş, külək və digər alternativ enerji mənbələri çıxış edirlər;

–Maliyyə resurslarının əsas mahiyyəti insan fəaliyyətini həyata keçirmək üçün zəruri olan pul vəsaitlərinin məcmusundan ibarətdir. Maliyyə resurslarına makrosəviyyədə əsas mənbələr kimi ÜDM, xarici-iqtisadi fəaliyyətdən gəlirlər, milli sərvətlər, vergilər, cəlb olunan borc-kredit vəsaitləri və s., mikrosəviyyədə isə müəssisələrin vəsaitləri, səhmlərin və istiqrazların satışından əldə olunmuş vəsaitlər, amortizasiya ayırmaları, kredit resursları və s. aiddirlər.

## 2. Resurslardan istifadənin konseptual aspektləri

Resurslardan istifadənin konseptual elementlərinin və meyarların hər birinin dərindən öyrənilməsi və resurslardan istifadə mexanizmlərinin müəyyənləşdirilməsində nəzərə alınması vacib şərtlər kimi diqqət çəkirlər. Şəkil 4.-də ümumi olaraq, resurslardan istifadənin konseptual elementləri və meyarları öz əksini tapmışdır.




**Şəkil 4. Resurslardan istifadənin konseptual elementləri və meyarları**
*Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*

Milli iqtisadiyyatın inkişafında resurslardan istifadənin konseptual aspektləri baxımından bunları qeyd etmək olar:

–İnsan resurslarından istifadənin konseptual baxılması üçün insan kapitalının formalaşdırılması və inkişafının dövlət mexanizmləri, metodoloji yanaşmaları, prioritet istiqamətləri müəyyənləşdirilməli, insan resurslarından istifadənin meyarları və praktiki istifadə alətləri hazırlanmalı, cəmiyyətin və milli iqtisadiyyatın inkişafında insan

amilinin maksimum nəzərə alınması təmin olunmalıdır;

−Yanacaq-enerji resurslarından istifadəyə konseptual yanaşmanın təmin edilməsi üçün bu resurslardan istifadənin güclü hüquqi-normativ bazasının yaradılması, resursların hərəkətinin effektivliyinin təmin edilməsi, onların uçotunun və təhlili mexanizmlərinin hazırlanması, resursların bölüşdürülməsi və milli iqtisadiyyatın davamlı inkişafına adekvat olaraq balanslaşdırılması tədbirlərinin həyata keçirilməsi təmin edilməlidir;

−Maliyyə resurslarından istifadənin optimallaşdırılması baxımından ən mühüm konseptual yanaşmalardan biri bu sahədə dövlətin strateji və prioritet vəzifələrinin adekvat olmasıdır. Dövlət özünün təkmilləşdirilmiş iqtisadi-maliyyə və kredit-sığorta iqtisadi siyasət mexanizmləri, optimal dövlət büdcəsi, maliyyə nəzarəti sistemləri ilə ölkədə maliyyə resurslarının formalaşması, hərəkəti, istifadəsi və onlara nəzarət proseslərinin effektiv təşkilini təmin etməlidir. Maliyyə resurslarının formalaşması və onlardan istifadə mexanizmləri müasir dövrün tələb və təklif seqmentlərinə müvafiq olaraq təkmilləşdirilməlidir.

### 3. İqtisadi resurslardan istifadənin tənzimlənməsinin hüquqi məsələləri

Ölkəmizdə əsas iqtisadi inkişaf resurslarından olan insan resurslarından, əmək ehtiyatlarından və işçi qüvvəsindən istifadənin tənzimlənməsinin hüquqi əsaslarının təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Ölkə vətəndaşlarının əmək hüquqlarının qorunması, əmək resurslarının məhsuldar yerləşdirilməsi, məşğulluğun gücləndirilməsi, insan resursları potensialının modelləşdirilməsi, təhsil və peşə səviyyəsinin yüksəldilməsi, insanların intellektual bacarıqlarının reallaşdırılması, bunlarla bağlı tənzimlənmə mexanizmlərinin modernləşdirilməsi, hüquqi əsasların təkmilləşdirilməsi vacib məsələlər olmaqla öz aktuallığını qoruyur. Vacib tənzimləmə tədbirlərindən biri kimi insan resurslarından səmərəli istifadə imkanlarının genişləndirilməsi üçün işəgötürən müəssisə və təşkilatların, özəl sahibkarlıq subyektlərinin bu sahədə vəzifə və hüquqları, onların stimullaşdırılması ilə bağlı proseslərin daha mütərəqqi hüquqi elementlərinin və bütövlükdə qanunvericilik bazasının formalaşdırılması göstərilə bilər. Bundan

əlavə kiçik sahibkarlıq subyektlərində əmək münasibətlərinin tənzimlənməsi, bu müəssisələrdə işçi qüvvəsindən istifadənin hüquqi-iqtisadi metodlarla həvəsləndirilməsinin genişləndirilməsi də faydalı hesab olunur.

Qeyd edək ki, resurslardan istifadənin tənzimlənməsi problemləri yanacaq-enerji resursları üçün daha çox aktualdır və bu sahənin resurslarından maksimum səmərəli istifadə edilməsi məsələləri dövlətin ali iqtisadi siyasətinin əsas istiqamətləri kimi xarakterizə olunur. Yanacaq-enerji resurslarından istifadə edilməsində mühüm dövlət tənzimlənməsi mexanizmləri və istiqamətləri kimi bu sahədə dövlət siyasətinin əsasları üzrə milli konsepsiyasının işlənib hazırlanması, resurslardan istifadənin tənzimlənməsini hüquqi əsaslarının müəyyənləşdirilməsi və müvafiq normativ hüquqi aktların qəbul edilməsi, enerjidaşıyıcılara qənaət edilməsinin stimullaşdırılmasını və bu sahədə kompleks idarəetmənin təşkili, yanacaq-enerji resursları sahələrinə investisiyaların cəlbinin genişləndirilməsi və bu istiqamətdə müxtəlif fəaliyyət subyektlərinin, nazirlik və komitələrin, şirkətlər və kompaniyaların, müəssisələr və təşkilatların qarşılıqlı fəaliyyətinin koordinasiyası, enerji resurslarından istifadə üzrə sərfiyyat normalarının optimallaşdırılması, bununla bağlı qənaət rejiminə imkan verən yeni texnologiyaların tətbiqinin intensivləşdirilməsi, bütövlükdə yanacaq-enerji resurslarından istifadə məsələlərinə dair tənzimlənmə mexanizmlərinin və elementlərinin müasir reallıqlar nəzərə alınmaqla baxılması və tətbiqi daha çox diqqət çəkirlər. Yanacaq-enerji resurslarından istifadənin hüquqi əsaslarının formalaşdırılması və təkmilləşdirilməsi tədbirləri uzunmüddətli perspektivlər və tendensiyalar nəzərə alınmaqla dərindən öyrənilməli, elmi-iqtisadi əsaslandırılmalı və bu mexanizmlərin tətbiqi ilə bağlı bütün məsələlər əvvəlcədən ciddi baxılmalıdır.

Müasir dövrdə maliyyə resurslarından istifadənin tənzimlənməsi mühüm əhəmiyyət daşıyır. Maliyyə resurslarının formalaşması, bunlarla bağlı maliyyə hesabatlarının hazırlanması, resurslardan istifadədə şəffaflığın və dürüstlüyün təmin edilməsi vacib məsələlərdəndir. Maliyyə hesabatlarının keyfiyyət xüsusiyyətlərinə maliyyə resurslarından istifadənin tənzimlənməsinin hüquqi əsaslarının adekvatlılığı, resurslarla bağlı analitik məlumatların və hesabatların münasibliyi,

onda cəmlənmiş informasiyaların mahiyyəti, maliyyə hesabatlarının əhəmiyyətlilik səviyyəsinin yüksək olması, bu hesabatların etibarlılığı, resurslarla bağlı baza məlumatların tamlığı, müqayisəli təhlilin aparılması və onlardan istifadənin prioritet istiqamətlərinin göstərilməsi vacib meyarlardandır. Maliyyə resurslarından fəal istifadənin stimullaşdırılması və genişləndirilməsi tədbirlərinin intensivliyinə baxmayaraq, bu istiqamətdə daha təsirli tənzimləmə metodlarının və hüquqi əsaslarının işlənib hazırlanması, tətbiq edilməsi zərurəti qalmaqdadır.

## 4. Azərbaycanda iqtisadi resurslardan istifadənin mövcud vəziyyəti və onun qiymətləndirilməsi

2000-ci illərin əvvəllərindən başlayaraq, ölkəmizdə milli iqtisadiyyatın resurs potensialından sistemli və effektivli istifadənin iqtisadi-təşkilati tədbirləri gücləndirilmişdir.

Azərbaycanın iqtisadi inkişaf resursları içərisində insan resursları və bununla bağlı digər əlaqəli resursların müasir vəziyyəti barədə təhlillərin aparılması vacib zərurət kimi diqqəti cəlb edir. Belə ki, ölkənin əmək bazarının dinamikliyi və tarazlığı insan resurslarından maksimum səmərəli istifadəyə əlverişli şərait yaradır.

Ölkəmizdə 5,1 mln. nəfərdən çox iqtisadi fəal əhali vardır və bunlardan 2019-cu ilin yekununa görə 4,9 mln. nəfərindən çoxu iqtisadiyyatda məşğul olan insanlardır. Bu qədər məşğul əhalinin insan potensialının reallaşdırılması və onlardan səmərəli istifadə edilməsi aktuallığı ilə diqqəti cəlb edir.

Qeyd etmək lazımdır ki, 2019-cu ilin yekunu üzrə ölkəmizdə əmək qabiliyyətli yaşda olan insanların sayı 6,4 mln. nəfərdən çox olmuşdur və bu tendensiya ilbəil artımla müşayiət edilir. Bu baxımdan mühüm resurs kimi insan resurslarından daha səmərəli istifadənin ölkə üzrə əmək qabiliyyətli insanların artımı kontekstində uzlaşdırılması və adekvat tədbirlərin görülməsi aktuallığı qalmaqdadır.

Ölkənin əmək bazarında 2019-cu il ərzində işdən çıxanların intensivliyi heç də zəif deyildir. Bu isə kadr axıcılığının əsas əlamətlərindən biri kimi qiymətləndirilə bilər. Buna görə də, ölkənin əsas sənaye sahələrində - mədənçıxarma və emal sənayesində işçi qüvvəsinin hərəkətinin insan resurslarından maksimum səmərəli istifadə edilməsi prizmasından balanslaşdırılmasının, bunlarla bağlı kompleks tədbirlərin və proqramların həyata keçirilməsi zərurəti vardır.

Ölkədə yanacaq-enerji resurslarından istifadənin mövcud vəziyyəti üzrə təhlili, ilk növbədə, əsas yanacaq-enerji resursları olan neft və təbii qazın hasilatının müqayisəli təhlilini şərtləndirir.

1995-2019-ci illər ərzində qaz kondensatı daxil olmaqla, neft hasilatı 4 dəfəyə yaxın artmış və 2019-cu ilin yekunu üzrə hasilat 37,5 mln. ton təşkil etmişdir. Bununla belə, 2010-2019-ci illərdə neft hasilatının aşağı düşməsi tendensiyası diqqət çəkir. Belə bir vəziyyət tükənən resurs kimi xarakterizə olunan neftdən istifadənin səmərəliliyinin yüksəldilməsi məsələlərinə uzunmüddətli perspektivlər və proqnozlar nəzərə alınmaqla strateji səviyyədə baxılması və kompleks tədbirlərin, proqramların hazırlanması vacib sayılır. Həmin dövr ərzində təbii qaz hasilatı 5,3 dəfəyə yaxın artmış və 2019-cu ilin yekunu üzrə 35,6 mlrd. kub. m. yaxın olmuşdur. Bundan əlavə, həmin dövr ərzində ölkədə ayrı-ayrı yanacaq-enerji resursları üzrə itkilərin təhlili də diqqət çəkir. Xam neftin itkisi üzrə son 5 ildə demək olar ki, yaxın nəticələr qeydə alınır və 2019-cu ildə bu göstərici 40,7 min ton təşkil etmişdir. Təbii qaz üzrə 2010-cu ildə 1117,0 mln. kub. m. olduğu halda, 2019-cu ilin yekununda 720,8 mln. kub m. təşkil etmişdir. Elektrik enerjisi üzrə itkilər isə 2010-2019-cu illərdə təxminən eyni səviyyədə, həm də heç də az olmayan bir səviyyədə olmuşdur. Məsələn, 2010-cu ildə elektrik enerjisi üzrə itkilər 3830,1 mln. kVt/saat olduğu halda, 2019-cu ildə bu rəqəm 2225,6 mln. kVt/saat səviyyəsində olmuşdur. Ümumiyyətlə, ölkəmizdə elektrik enerjisi resurslarından istifadənin səmərəliliyinin daha dərin təhlili və adekvat tədbirlərin görülməsi üzrə problemlər qabarıqdır. Qeyd edək ki, enerji resurslarından istifadənin balanslaşdırılması və onun maya dəyərinin aşağı salınması üçün elektrik stansiyalarının güclərinin müasir texnologiyalar hesabına yenilənməsi və artması vacib şərtləndəndir. 1995-2019-cu illər ərzində dövlət büdcəsinin gəlirləri 77 dəfədən çox artmış və 2019-cu ildə 24,3 mlrd. manat təşkil etmişdir. Həmin dövr ərzində dövlət büdcəsinin xərcləri 57 dəfə artmış və 2019-cu ildə 24,4 mlrd. manat olmuşdur. Ölkə büdcəsinin gəlirlərinin bəzi maddələri üzrə son illərdə əhəmiyyətli artım müşahidə edilmir. Məsələn, hüquqi şəxslərin mənfəət vergisi üzrə dövlət büdcəsinə daxil olmalar 2011-2019-cu illərdə demək olar ki, eyni səviyyədə qalmış və əhəmiyyətli artım nümayiş etdirməmişdir. Bu fakt ölkəmizdə maliyyə resurslarının

formalaşmasında, hərəkətində və istifadəsində əhəmiyyətli yer tutan hüquqi şəxslərin mənfəətinin artırılması problemlərinə, maliyyə resurslarından istifadənin yüksəldilməsi məsələlərinə diqqətin yönəldilməsini şərtləndirir və zəruri edir. Ümumiyyətlə, bütövlükdə, dövlət büdcəsinin gəlir və xərclərinin optimallaşdırılması və modelləşdirilməsi üzrə kompleks tədbirlərin müəyyənləşdirilməsi, bunlarla bağlı mexanizmlərin təkmilləşdirilməsi aktual olaraq, qalmaqdadır.

**5. Azərbaycanda iqtisadi resurslarından istifadənin tənzimlənməsi sisteminin inkişaf prioritetləri və əsas istiqamətləri**

Ölkəmizdə əmək və insan resurslarından maksimum istifadənin tənzimlənməsi məqsədilə aşağıdakı istiqamətlər üzrə inkişaf prioritetlərinə ciddi önəm verilməlidir:

–ilk növbədə, ölkənin əmək və insan resursları, işçi qüvvəsi ilə bağlı baza məlumatları obyektiv olaraq dərindən araşdırılmalı və dəqiqləşdirilməlidir;

–ölkənin əmək bazarının göstəricilər sistemi elmi-iqtisadi yanaşmalarla təhlil olunmalı və əldə edilmiş nəticələrə adekvat tənzimləmə mexanizmləri müəyyənləşdirilməlidir;

–insan resurslarının davamlı iqtisadi inkişaf proseslərinə maksimum cəlb edilməsi məqsədilə konseptual səviyyədə strateji hədəflər, bunlarla bağlı tənzimləyici mexanizmlər müəyyənləşdirilməlidir;

–ölkə əhalisinin işlə təmin edilməsi, məşğulluğun gücləndirilməsi tədbirlərinin keyfiyyətcə yeni səviyyəyə qaldırılması təmin olunmalıdır və s.

Ölkənin davamlı iqtisadi inkişafının gücləndirilməsində bu resurslardan istifadənin tənzimlənməsi sisteminin yeni inkişaf prioritetlərinin müəyyənləşdirilməsi zərurəti vardır. Bunlara aşağıdakıları aid etmək olar:

–ölkədə enerji resurslarının mövcud vəziyyətinin obyektiv qiymətləndirilməsi və bununla bağlı tənzimlənmə sisteminin təkmilləşdirilməsi vacibdir;

–enerjidaşıyıcılardan qənaətlə istifadənin stimullaşdırılması baxımından tənzimlənmə sistemi bazar iqtisadiyyatı prinsipləri ilə uzlaşdırılmalı, sahəyə yönəldilən dövlət vəsaitləri, birbaşa və dolayı subsidiyalar tədricən bazar elementləri ilə əvəzlənməlidir;

–enerji resurslarından maksimum bəhrələnmək məqsədilə onun

ixrac potensialının formalaşdırılmasına xüsusi diqqət yetirilməlidir;

–ölkənin bütün regionlarının fasiləsiz və etibarlı formada enerji resursları ilə təmin edilməsi sistemi formalaşdırılmalı, bu sahələrə müasir texnologiyalar və yeni avadanlıqlar gətirilməli, tənzimləmə mexanizmləri yenilənməli və müasir dövrün tələblərinə uyğun olmalıdırlar.

Yaxın perspektivdə ölkəmizdə insan resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsi zəruriliyi, vəzifələri və yollarını bu formada ümumiləşdirməyi məqsədəuyğun sayırıq:

–ölkədə "insan resursları" anlayışı üzrə sistemli və kompleks yanaşmanı təmin edən meyarlar yenilənməli və bunlarla əlaqədər qanunvericilik bazası təkmilləşdirilməlidir;

–qüvvədə olan əmək qanunvericiliyi aktları, normativ sənədlər "insan amili" anlayışını əsas götürməklə, müasir dövrdə insan resurslarından istifadənin effektiv modelləşdirilməsinə imkan verən səviyyəyə adekvat təkmilləşdirilməli və zəruri hallarda yenidən hazırlanmalıdır;

–ölkə iqtisadiyyatının müxtəlif sahələrində, sahibkarlıq və biznes subyektlərində ədalətli rəqabət mühitinin formalaşdırılması və inkişafı təmin edilməli, neft ixracından əldə edilən gəlirlərin bir hissəsi insan amilinin inkişafına yönəldilməlidir;

–əmək bazarının tələbatı nəzərə alınmaqla, yüksək hazırlıqlı insan resurslarının formalaşdırılması və onlardan səmərəli istifadənin tənzimlənməsi mexanizmləri tətbiq edilməlidir;

–insan resurslarının keyfiyyətcə yüksəldilməsi və onların iqtisadi fəallığının artırılması üçün balanslaşdırılmış dövlət iqtisadi siyasətinin, o cümlədən, insan resurslarından effektivli istifadə edilməsi və səmərəli məşğulluq siyasətinin yeni modelinin işlənib hazırlanması və həyata keçirilməsi təmin olunmalıdır və s.

Yanacaq-enerji resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsi zərurəti, ilk növbədə bu sahədə resurs potensialından məhsuldar istifadənin modelləşdirilməsi və bu resurslardan qənaətlə istifadənin təmin edilməsidir. Bu istiqamətlərdə səmərəliliyin yüksəldilməsi yollarının müəyyənləşdirilməsi və reallaşdırılması ilə bağlı aşağıdakıları qeyd etmək mümkündür:

–ölkədə yanacaq-enerji resurslarından istifadənin yeni

prioritetlərinin və hədəflərinin müəyyənləşdirilməsi və bu məsələlərin milli iqtisadi maraqlar konteksində konseptual səviyyədə baxılması zəruridir;

–yanacaq-enerji resurslarından istifadənin tənzimlənmə mexanizmləri təkmilləşdirilməli və zərurət yaranarsa yenilənməlidir;

–əsas yanacaq-eneji resursları olan neft və qaz yataqlarının işlənib hazırlanması, hasilatın təşkili, bu resurslardan səmərəli istifadə sahəsində iqtisadi-texniki və təşkilati tələblərin-meyarların müəyyənləşdirilməsi və həyata keçirilməsi təmin olunmalıdır;

–yanacaq-enerji kompleksinin yeni texnologiyalar əsasında inkişafının təmin edilməsi, əsas istehsal fondlarının yenilənməsi, bu kompleksin sahələrinə yüksək standartlara və məhsuldarlığa malik istehsal avadanlıqlarının gətirilməsi, texnoloji itkilərin və sərfin azaldılması, resurslardan qənaətli və daha çox fayda ilə istifadə olunması təmin edilməlidir;

–yanacaq-enerji resurslarının emal şəbəkəsinin müasir standartlar səviyyəsində təşkili problemləri kompleks baxılmalı, bu sahədə uzun illərdir ki, planlaşdırılan və proqnozlaşdırılan iri layihələrin reallaşdırılması işləri intensivləşdirilməli, rəqabətqabiliyyətli emal müəssisələri yaradılmalıdır və s.

Ölkədə maliyyə resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsi yolları kimi bu tədbirlərin reallaşdırılması məqsədəuyğun hesab oluna bilər:

–ilk növbədə, ölkədə maliyyə resurslarının formalaşması, onların mənbələrinin davamlı və məhsuldar olması tədbirləri həyata keçirilməlidir;

–maliyyə resurslarından istifadənin hər bir istiqaməti üzrə praktiki reallıqlar nəzərə alınmaqla qanunvericilik bazası, normativlər və tənzimlənmə mexanizmləri təkmilləşdirilməlidir;

–maliyyə resurslarının strukturu, hərəkəti və istifadəsi prosesləri elmi-iqtisadi metodoloji yanaşmalar və metodlar tətbiq edilməklə dərindən təhlil edilməli və resurs potensialı obyektiv qiymətləndirilməlidir;

–ölkə üzrə maliyyə resurslarının və maliyyə ehtiyatlarının balanslaşdırılması, maliyyə siyasətinin təkmilləşdirilməsi, mövcud vəziyyətə adekvat maliyyə mexanizmlərinin tətbiq edilməsi, maliyyə re-

surslarından səmərəli istifadənin meyarlarının müəyyənləşdirilməsi, maliyyə resurslarından effektivli istifadənin stimullaşdırılması üzrə kompleks tədbirlərin, məqsədli dövlət proqramlarının, konsepsiya və strategiyaların hazırlanması, reallaşdırılması tədbirləri görülməlidir və s.

**Dissertasiyanın əsas müddəaları üzrə nəticə və təkliflər**

Müasir dövrdə davamlı iqtisadi inkişaf baxımından Azərbaycanın iqtisadi resurslarından istifadənin tənzimlənməsi sisteminin inkişaf prioritetlərini aşagıdakı kimi baxmağı məqsədəuyğun hesab edirik:

–ölkədə əmək ehtiyatlarından istifadənin müasir və məhsuldar istifadə indikatorları hazırlanmalı, bunlarla bağlı proseslər və qanunvericilik bazası təkmilləşdirilməlidir;

–insan resurslarından istifadənin mütərəqqi dünya təcrübəsinə uyğun olaraq tənzimlənməsi və təşkili üzrə məqsədli dövlət proqramları və strategiyaları hazırlanaraq reallaşdırılmalıdır;

–yanacaq-enerji resurslarından istifadənin keyfiyyətcə müasir modelləri və məhsuldar inkişaf mexanizmləri tətbiq edilməlidir;

–yanacaq-enerji resurslarından istifadənin tənzimlənməsi prosesləri təkmilləşdirilməli və bunlarla bağlı proseslər dövlətin iqtisadi siyasətinin strateji vəzifələri kimi qiymətləndirilməlidir;

–yanacaq-enerji resurslarının emal şəbəkəsinin təşkili layihələrinə xarici investisiyaların gətirilməsi mexanizmləri yenidən işlənib hazırlanmalı və burada stimullaşdırıcı mexanizmlərin cəlbediciliyi təmin olunmalıdır;

–enerjidaşıyıcılardan və enerji resurslarından qənaətlə istifadənin stimullaşdırıcı tənzimləmə mexanizmləri hazırlanmalı, bu sahədə cəmiyyətdə və bütün ölkə əhalisi arasında aparılan işlərin səmərəliliyi yüksəldilməli və resurslardan qənaətlə istifadənin maksimum təmin edilməsi reallaşdırılmalıdır;

–ölkədə maliyyə resurslarından istifadənin tənzimlənməsi hesabına davamlı iqtisadi inkişafın təmin edilməsi üçün maliyyə resurslarından istifadənin hüquqi-iqtisadi əsaslarının, bütövlükdə ölkənin maliyyə sisteminin təkmilləşdirilməsi, onların makroiqtisadi problemlərinin həlli konteksində tənzimlənməsi təmin edilməlidir və s.

Azərbaycanda iqtisadi resurslardan istifadənin səmərəliliyinin yüksəldilməsi zərurəti kifayət qədər aktualdır. Bununla bağlı

problemlərin sistemləşdirilməsi və kompleks baxılması vəzifələri müəyyənləşdirilmiş və onların həlli yolları göstərilmişdir:

–ölkədə resurs potensialından maksimum istifadənin təmin edilməsi məqsədilə, bu sahədəki problemlər üzrə mühüm tədbirlər kompleksi hazırlanaraq həyata keçirilməli, qanunvericilik bazası təkmilləşdirilməli, praktiki fəaliyyət mexanizmləri müasir dövrün tələblərinə müvafiq olaraq hazırlanmalı və tətbiq edilməlidir;

–insan amili əsas götürülməklə, ölkədə "insan resursları" anlayışına kompleks metodoloji yanaşmalar təmin edilməli, bu sahədə dövlət siyasəti mexanizmləri hazırlanmalı və təkmilləşdirilməli, bütövlükdə insan resurslarından səmərəli istifadənin reallaşdırılmasına imkan verən müasir hüquqi-normativ bazanın yaradılması təşkil olunmalıdır;

–insan resurslarından bacarıq, fərdi keyfiyyərlər və intellektual səviyyəyə uyğun olaraq istifadənin reallaşdırılması üçün ölkədə əmək qanunvericiliyinin təkmilləşdirilməsi, layiqli əməyin təmin edilməsi, məşğulluğun gücləndirilməsi, bu istiqamətlərdə sahibkarlıq və biznes subyektlərinin fəaliyyətinin stimullaşdırılması üzrə ardıcıl və uzun-müddətli dövr üçün təsirli kompleks tədbirlər və proqramlar həyata keçirilməlidir;

–ölkədə yanacaq-enerji resurslarından səmərəli istifadənin müasir prioritetləri və strateji hədəflərinin reallaşdırılması sürətlən-dirilməlidir;

–yanacaq-enerji resurslarından istifadənin tənzimlənmə mexanizmləri yenilənməli və təkmilləşdirilməli, resursların qənaəti əsas götürülməklə yeni meyarlar, normalar və standartlar elmi-iqtisadi əsaslandırılaraq hazırlanmalı və tətbiq edilməlidır;

–yanacaq-enerji kompleksinin məhsuldar fəaliyyəti və inkişafının sürətləndirilməsi üçün neft-qaz sahələri ilə yanaşı, bu sahələrin emal proseslərinə müasir texnologiyaların və idarəetmə metodlarının gətirilməsi, yeni emal müəssisələrinin yaradılması və hazır məhsul çeşidinin, xüsusilə, ixrac təyinatlı məhsulların çeşidinin genişləndirilməsi, neft-qaz emalı müəssisələrinin rəqabətqabiliyyət-liliyinin artırılması tədbirlərinin həyata keçirilməsi təmin olunmalıdır;

–ölkədə maliyyə resurslarına olan davamlı və yüksək tələbatı nəzərə almaqla, maliyyə resurslarının formalaşdırılması mənbələrinin

diversifikasiyalaşdırılması tədbirləri genişləndirilməli, bununla bağlı hüquqi-maliyyə mexanizmləri təkmilləşdirilməlidir;

−ölkənin əsas maliyyə sənədi olan dövlət büdcəsinin gəlirlərinin və xərclərinin optimallaşdırılması tədbirləri həyata keçirilməli, maliyyə resurslarından istifadənin nəzarət mexanizmləri təkmilləşdirilməli və bu sahədə dünya ölkələrinin mütərəqqi təcrübəsi nəzərə alınmalıdır;

−ölkənin neft gəlirlərindən, valyuta ehtiyatlarından və ümumilikdə, məcmu maliyyə resurslarından maksimum səmərəli istifadənin elmi-iqtisadi əsaslara söykənmiş metodoloji yanaşmaları və mexanizmləri, praktiki fəaliyyət alətləri və üsulları hazırlanmalıdır və s.

**Dissertasiyanın mövzusu üzrə müəllifin aşağıdakı işləri çap edilmişdir:**

1. Müasir dövrdə iqtisadi resurslardan istifadənin konseptual aspektləri. ("İpək Yolu" Azərbaycan Universitetinin elmi jurnalı, № 3, Bakı 2015, səh.5-11).

2. Beynəlxalq ticarət sistemində iqtisadi inkişaf resurslarından səmərəli istifadənin problemləri (Azərbaycan timsalında). ("Beynəlxalq Ticarət Sisteminin Balidən sonrakı məqsədləri" Beynəlxalq elmi konfransın materialları. Bakı 2015, səh. 132-142)

3. Azərbaycanda milli resurslardan istifadənin tənzimlənməsinin iqtisadi-hüquqi aspektləri. ("İpək Yolu" Azərbaycan Universitetinin elmi jurnalı, № 2, Bakı 2016, səh.28-36).

4. Maliyyə resurslarından istifadənin müasir reallıqları və səmərəli istifadə yolları. "Audit" jurnalı, Bakı, 2016, № 2. səh.44-48

5. Особенности и проблемы регулирования использования экономических ресурсов в современных условиях (Научное обозрение (Журнал ВАК РФ), № 7, Москва 2016, стр.177-182).

6. Azərbaycanda iqtisadi resurslardan istifadənin effektivlik məsələləri. ("İpək Yolu" Azərbaycan Universitetinin elmi jurnalı, № 4, Bakı 2016, səh.68-75).

7. Azərbaycanda iqtisadi resurslardan istifadənin konseptual aspektləri. (Sumqayıt Dövlət Universiteti, İqtisadiyyatın davamlı inkişafı problemləri, perspektivlər. Beynəlxalq elmi konfransın materialları, II hissə 27-28 aprel 2016-cı il, səh.449-451.)

8. Azərbaycanda insan resurslarından istifadənin

tənzimlənməsi xüsusiyyətləri.(AMEA-nın Əsas binasında İqtisadiyyat İnstitutunun 60 illik yubileyinə həsr olunan "İqtisadi artım və ictimai rifah" mövzusunda beynəlxalq elmi konfrans materialları. Bakı 2018, s. 715-719)

9. Azərbaycan Xalq Cümhuriyyəti dövründə iqtisadi inkişaf resursları və onlardan istifadə imkanları. ("Yeni Türkiyə Dərgisi", Yeni Türkiyə Stratejik Araştırma Merkezi, №108, Ankara 2019, səh. 209-213)

10. The role of education in raising the efficiency of human resources use in Azerbaijan. (Azərbaycan Dövlət İqtisad Universiteti, Türkiyənin Sakarya Universiteti, "Lifelong education and leadership". Beynəlxalq elmi konfransın materialları. Sakarya 2019, p/p 21-29)

11. Features of Regulating the Use of Financial Resources in Azerbaijan. (Azərbaycan Dövlət İqtisad Universiteti, 55th International Scientific Conference on Economic and Social Development. Beynəlxalq elmi konfransın materialları. Vol. 4/4, 2020. p/p. 213-218)

12. Analysis of Cyclicality in the Azerbaijan Economy: Results of the Chi-Square Test. (Academic Journal of Economic Studies. Vol. 6, No. 2, Rumıniya 2020, p/p. 122–134 Həmmüəllif-İbrahim Niftiyev)

Dissertasiyanın müdafiəsi “31” may 2021-ci il tarixdə saat 14:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında (www.unec.edu.az) yerləşdirilmişdir.

Avtoreferat “30” aprel 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 14.04.2021.
Kağızın formatı: 60x84 $_{1/16}$. Sifariş 04/11.
Həcmi 1 ç.v. (40509 işarə). Tiraj 100.

*"AA – Poliqraf" istehsalat-kommersiya birliyində hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.*

*Əlaqə üçün: capevi@internet.ru / (+99455) 201-2809*